II BÖLMƏ.
AQRAR-ƏRZAQ KOMPLEKSİNİN İNKİŞAFI, İXRAC FƏALİYYƏTİ, LOGİSTİKA

UOT 339.562, 346.543

Vahid Hacıbəy oğlu ABBASOV
i.e.d., professor, Bakı Dövlət Universitetinin
“İqtisadiyyat” kafedrasının müdiri
E-mail: vahid.abbasov.56@mail.ru

Təhminə Hamlet qızı SƏFƏRLİ
doktorant, Bakı Dövlət Universiteti, “İqtisadiyyat” kafedrası
E-mail: tahminabdu@gmail.com
https://doi.org/10.30546/4.71.73001.2025.003.025

ƏRZAQ BAZARINDA İDXALDAN ASILILIĞIN TƏNZİMLƏNMƏSİ

Xülasə

Tədqiqatın məqsədi – ərzaq məhsullarının idxaldan asılılığının tənzimlənməsi ilə bağlı iqtisadi yanaşmaları nəzərə almaqla, yerli istehsal, ərzaq idxalı və ixracında mövcud vəziyyət, bunlar arasındakı qarşılıqlı əlaqənin təhlili və təkmilləşdirilməsi istiqamətində təkliflərin hazırlanmasından ibarətdir.

Tədqiqatın metodologiyası – məqalənin hazırlanmasında milli inkişaf proqramlarından, ərzaq bazarının tənzimlənməsinə dair elmi-nəzəri yanaşmalardan, ümumi tədqiqat və statistik təhlil, ümumiləşdirmə, müqayisə, məntiqi mühakimə kimi fərdi tədqiqat metodlarından istifadə edilmişdir.

Tədqiqatın praktki əhəmiyyəti – Azərbaycanda əksər ərzaq məhsulları üzrə özünütəminetmə səviyyəsinin artırılmasına, idxaldan yüksək asılılığın azaldılmasına, ixrac məhsullarının emal-yönümlülüyünün yüksəldilməsinə, daxili bazar tələbinin yerli istehsal hesabına qarşılanmasında tənzimləmə siyasətinin təkmilləşdirilməsinə təklif və tövsiyələrin hazırlanmasından ibarətdir.

Tədqiqatın nəticələri - ərzaq məhsulları istehsalının daxili bazarın tələbini qarşılaya biləcək səviyyəyə çatdırılması üçün investisiya qoyuluşlarının artırılması, istehsal, emal və bazar infrastrukturunun inkişafı istiqamətində dövlət dəstəyinin təmin edilməsi, ərzaq bazarında kənd təsərrüfatı məhsulunun istehsalı, tədarükü, emalı və son istehlakçıya çatdırılmasına qədər olan bütün əlaqəli sahələrin inkişaf etdirilməsinə dair məsələləri əhatə etməkdədir.

Tədqiqatın orijinallığı və elmi yeniliyi – nəzəri mənbələrdən, statistik məlumatlardan və analitik materiallarından ardıcıl və düzgün istifadə edilməsi baxımından tədqiqatın nəticələri orijinaldır, ərzaq məhsulları bazarında idxaldan asılılığın əsas səbəblərinin öyrənilməsi və aradan qaldırılması, bitkiçilik, heyvandarlıq və sənaye emalından keçmiş ərzaq məhsulları ilə özünütəminetmə, idxaldan asılılığın qarşılıqlı əlaqəsinin müəyyənləşdirilməsi, istehsal potensialından səmərəli istifadə olunmasına təsir göstərən iqtisadi mexanizmlərin müəyyənləşdirilməsinə dair mülahizələr elmi yenilik xarakterlidir.

Açar sözlər: ərzaq bazarı, idxaldan asılılıq, ərzaq istehsalı, idxal, ixrac.

Giriş

Xarici ticarət fəaliyyətinin əsas məqsədlərindən biri ölkə əhalisinin məhsul və xidmətlərə tələbinin qarşılanmasıdır. İdxal funksiyası bu mənada ölkədə bazar tələbinə uyğun məhsul çatışmazlığı olduğu halda xarici ölkələrdən həmin məhsulların təmin edilməsinə imkan verir. Lakin

idxal-ixrac əməliyyatlarının yekununda ölkədə mənfi xarici ticarət balansının formalaşması valyuta ehtiyatlarının azalmasına, iqtisadi inkişafın təmin olunmasında risklərin artmasına səbəb ola bilir. Ona görə də, idxaldan asılılığın azaldılması xarici ticarət balansında müsbət saldonun formalaşması, ölkənin valyuta ehtiyatlarının artırılması, milli valyutanın alıcılıq qabiliyyətinin, əhalinin real gəlir səviyyəsinin yüksəldilməsi, qiymət sabitliyinin qorunması və s. kimi bir çox sosial-iqtisadi əhəmiyyətə malik problemlərin həllinə səmərəli təsir göstərə bilər. İdxaldan asılılığın azaldılması heç bir halda yerli istehsal imkanlarından kənarda nəzərdən keçirilə bilməz, həmçinin ixrac fəaliyyəti ilə əlaqəli tərəfləri də iqtisadi tənzimləmənin əhatə dairəsində olmalıdır.

Ərzaq məhsullarının idxaldan asılılığının tənzimlənməsinə dair iqtisadi yanaşmalar

İdxaldan asılılığın azaldılmasında idxal əvəzləyici yerli istehsalın inkişafının bütün istiqamətlərdə tam təmin edilməsi real deyildir. Eyni zamanda beynəlxalq ixtisaslaşmada bir çox məhsulların daha əlverişli istehsal texnologiyalarını qurmuş ölkələrlə uzunmüddətli rəqabət üçün yetərli maliyyə imkanlarının olmaması, milli iqtisadiyyatda ilk növbədə istehsal imkanları, daxili bazarın tələbi, istehsalın təşkilinin sadəliyi və daha əlçatan iqtisadi vasitələrlə mümkünlüyü nəzərə alınaraq sahələr, məhsul növləri üzrə seçilmiş istiqamətlərə başlanğıc üçün üstünlük verilə bilər.

Azərbaycanın xüsusilə kənd təsərrüfatında, ölkənin regionları üzrə istehsal potensialını, ərzaq təhlükəsizliyi üçün əhəmiyyətini nəzərə alaraq, stimullaşdırıcı tədbirlərdən, o cümlədən, vergi və gömrük rüsumlarından güzəştlərin tətbiqi, güzəştli şərtlərlə kreditlərin verilməsi, subsidiya, irriqasiya, meliorasiya və s. kimi infrastruktur elementlərinin təkmilləşdirilməsində istifadə olunan mexanizmlərin əhatə dairəsi genişləndirilməlidir [4].

Ərzaq məhsullarının idxaldan asılılığının azaldılması tədbirləri həm də xarici ticarət tənzimləmələri çərçivəsində olduğundan idxal və ixracda rüsumlar, vergi ödənişləri, kvotaların tətbiqi kimi bir sıra mexanizmlərdən istifadə olunur. Həmçinin yerli istehsalın qorunması və dəstəklənməsi üzrə digər tədbirlər də əlavə olaraq nəzərdən keçirilməlidir. Xarici iqtisadi fəaliyyətdə proteksionizmin yerli istehsalın inkişafında tətbiqinin iqtisadi siyasətdə təsirinin artmasını nəzərə alaraq hesab olunur ki, milli iqtisadiyyatda sistem transformasiyasının başa çatdırılması vacibdir. Bu məsələ həllini tapmamış daxili bazarın himayəsi yalnız səmərəsiz istehsal şəraitinin qorunmasına, ölkənin istehsal bazasının zəifləməsinə və yenə də xarici bazarlardan asılılığın güclənməsinə gətirib çıxara bilər. Çünki struktur prioritetləri düzgün müəyyənləşdirilmədiyinə görə inkişaf elementləri zəif olan sahələrə proteksionizm tədbirləri çərçivəsində maliyyə və digər yardımların edilməsi hər hansı effekt verməz və əksinə, ağır nəticələrə gətirib çıxara bilər [1, s.68].

Bir sıra ərzaq məhsullarının idxal qiymətlərinin yerli istehsal məhsullarının qiymətlərindən xeyli aşağı olmasının yerli istehsalın inkişafına mənfi təsirlərinin olacağına, iqtisadi stimulları azaldacağına dair yanaşmalara da rast gəlinir. İstehsalçıların iqtisadi stimullarının zəifləməsi, əsas məhsulun istehsalı ilə yanaşı əlaqəli sahələrin məhsul və xidmətlərinə tələbin azalması, həmin sahələrdə məşğul olanların sayını nəzərə aldıqda məşğulluq səviyyəsində ciddi azalmaların olması kimi nəticələri bu halın davam etməsinin yaradacağı iqtisadi risklərdəndir. Aşağı qiymətlərlə kənd təsərrüfatı və onların emalı məhsullarının idxalının daxili bazarda istehlak səbətinin formalaşdırılmasında müsbət təsiri olsa da, yerli məhsulların qiymət rəqabətində sıxışdırılmasının nəticəsi olaraq satılmamış məhsulların həcmi azalacaq, təkrar istehsalın təşkilində, yerli istehsala investisiyalarda azalmalar olacaqdır. Buna görə də, belə hallarda idxal rüsumlarının yerli istehsalçıların qorunmasına imkan verəcək həddə qaldırılması məqsədəuyğundur [2, s.386-391].

Aqrar sahə məhsulları ilə özünütəminetmə səviyyəsinin yüksəlməsi, idxalın yerli istehsalla əvəzlənməsi hesabına idxaldan asılılığın azaldılmasının başlıca şərti kənd təsərrüfatının istehsal potensialının genişləndirilməsindədir. Belə hesab olunur ki, yerli istehsalın artması ilə bu sahədə ixrac həcmi arasında düz, idxal həcmi arasında tərs asılılıq mövcuddur. Lakin idxal məhsullarının dünya bazarındakı qiymət dəyişiklikləri də idxal həcminə təsir göstərməkdədir və yerli bazarda alıcılar üçün daha əlverişli qiymətlərdə idxal həcmi arta bilər [3].

Azərbaycanda ərzaq təminatının yaxşılaşdırılmasına təsir göstərəcək bir çox tədbirlər həyata keçirilsə də, ərzaq məhsulları ilə təminetmə və idxaldan asılılıq göstəriciləri hələ də ölkənin sahib

olduğu potensialdan geri qalmaqdadır. Azərbaycanda etibarlı ərzaq təminatı (2008) və qida təhlükəsizliyi (2019) sahəsində təsdiq olunmuş dövlət proqramlarının müddəalarında istehsal, idxal-ixrac sahəsində çatışmazlıqlardan qaynaqlanan müəyyən məsələlərin həlli də proqrama daxil edilmişdir. Ərzaq məhsulları üzrə idxaldan asılılığın azaldılması zərurəti, xüsusilə, “2008-2015-ci illərdə Azərbaycan Respublikasında əhalinin ərzaq məhsulları ilə etibarlı təminatına dair” Dövlət Proqramının qəbul edilməsində yerli istehsalın ərzaq məhsullarına olan tələbatı qarşılaya bilməməsi və dünya ərzaq bazarında yaranan qeyri-sabitliyin Azərbaycanda ərzaq məhsullarının qiymətinə təsir göstərməsi kimi amillərlə əsaslandırılır [9].

Azərbaycanda ərzaq məhsulları üzrə idxaldan asılılığın mövcud vəziyyəti

Azərbaycanda bitkiçilik və heyvandarlıq sahələri üzrə ərzaq məhsullarının istehsal, idxal və ixrac göstəriciləri Cədvəl 1-də göstərilmişdir.

Cədvəl 1.

Azərbaycanda bitkiçilik və heyvandarlıq məhsullarının istehsal, idxal və ixrac göstəriciləri, min ton

Məhsul növləri		İllər üzrə						
		2010	2015	2019	2020	2021	2022	2023
Dənli (çəltik istisna olmaqla) və dənli paxlalılar	istehsal	1946	2920	3440	3162	3265	3066	3158
	idxal	1495	1603	1688	1486	1219	1401	1325
	ixrac	0.5	-	22	0.7	48	18	3
Kartof	istehsal	938	839	1004	1037	1061	1074	1010
	idxal	76	139	201	189	226	211	186
	ixrac	91	36	61	81	92	78	71
Bütün növ tərəvəzlər	istehsal	1189	1275	1714	1738	1815	1823	1825
	idxal	84	41	39	56	63	54	58
	ixrac	55	84	222	220	175	170	180
Bostan məhsulları	istehsal	433	484	447	448	459	469	438
	idxal	0.2	-	-	-	-	1	-
	ixrac	0.3	-	3	4	12	15	14
Meyvə və giləmeyvələr	istehsal	729	888	1099	1133	1204	1253	1261
	idxal	151	74	141	152	166	167	170
	ixrac	204	182	347	310	391	409	500
Bütün növ ət və ət məhsulları	istehsal	244	298	335	346	357	368	379
	idxal	36	17	72	63	56	61	66
	ixrac	1	-	-	-	-	1	1
Süd və süd məhsuları	istehsal	1535	1924	2150	2192	2223	2264	2283
	idxal	647	366	391	461	417	489	474
	ixrac	-	6	49	27	17	37	39
Yumurta, mln ədəd	istehsal	1178	1552	1827	1906	1838	2018	2188
	idxal	25	5	2	-	17	1	1
	ixrac	0.6	-	34	-	-	11	48
Balıq və balıq məhsulları	istehsal	45	51	63	61	59	59	62
	idxal	14	14	14	14	17	18	21
	ixrac	0.2	-	-	-	-	-	-

Mənbə: ARDSK-nın məlumatları əsasında tərtib olunmuşdur.

Statistik məlumatların təhlilindən göründüyü kimi 2010-cu illə müqayisədə bitkiçilik və heyvandarlıq üzrə əksər ərzaq məhsullarının yerli istehsalında artımın olduğu görünür. Bununla belə, bir çox hallarda paralel olaraq idxal və ixracda da artımın olması daha detallı təhlilin aparılmasını tələb edir.

Azərbaycanda bitkiçilk, heyvandarlıq, sənaye emalından keçirilmiş ərzaq məhsullarının idxaldan asılılıq səviyəsi 2010, 2015 və 2019-2023-cü illərin göstəriciləri əsasında hesablanmaqla

Cədvəl 2, Cədvəl 3-də verilmişdir. Göstəricilərin qeyd olunmadığı xanalar nəticələrin olduqca kiçik olmasına görə göstərilməmişdir. Hesablama zamanı Azərbaycan Respublikası Dövlət Statistika Komitəsinin yayımladığı metodoloji izahlar bölməsində olan idxaldan asılılığın hesablanması düsturundan istifadə edilmişdir [10].

$$İas = \frac{idxal}{istehsal + idxal - ixrac} * 100\%$$

Düstura əsasən idxaldan asılılıq səviyyəsinin idxal həcmi və ixrac həcmi artdıqda artma meyli, azaldıqda azalma meyli göstərəcəyini, istehsalın artmasında isə aşağı göstərici alması daha gözlənilən olacaqdır. Həmçinin idxal və ixrac göstəriciləri ayrılıqda götürdükdə yerli istehsal həcmi ilə qarşılıqlı əlaqəyə malik olduğundan idxaldan asılılığın təhlilində nəzərə alınmalıdır.

Cədvəl 2.

Azərbaycanda bitkiçilik və heyvandarlıq məhsulları üzrə idxaldan asılılıq səviyyəsi, faizlə

Məhsul növləri	İllər üzrə						
	2010	2015	2019	2020	2021	2022	2023
Dənlilər (çəltik istisna olmaqla) və dənli-paxlalılar	43.4	35.4	33	31.9	27.4	31.4	29.5
Kartof	6.8	14.7	17.6	16.5	18.9	17.5	16.5
Bütün növ tərəvəzlər	6.9	3.4	2.5	3.5	3.7	3.2	3.4
Bostan məhsulları	-	-	-	0.1	0.2	0.2	0.1
Meyvə və giləmeyvələr	13	9.5	15.8	15.6	17	16.5	18.2
Bütün növ ət və ət məhsulları	12.8	5.5	17.7	15.5	13.7	14.3	14.9
Süd və süd məhsulları	29.6	16	15.6	17.5	15.9	18	17.4
Yumurta	2.1	0.3	0.1	-	0.9	-	-
Balıq və balıq məhsulları	23.8	22.4	18.5	19.3	22.6	24.1	25.3

Mənbə: ARDSK-nın məlumatları əsasında tərtib olunmuşdur.

Bitkiçilik məhsulları üzrə idxaldan asılılıq göstəricilərinin verildiyi cədvəl 2.-yə baxdıqda seçilmiş məhsullardan xüsusilə dənlilər və dənli-paxlalılarda göstərici daha yüksəkdir. Kartof, meyvə və giləmeyvələrdə isə idxaldan asılılıq göstəricisi əsasən 10%-dən yüksək hədlərdə olmuşdur. İdxaldan asılılığın yüksək olmasında əsas baxılmalı olan məqam yerli istehsal həcminin yetərli olmamasıdır. Bir sıra hallarda daxili bazar tələbindən yüksək həcmdə istehsalın olmasına baxmayaraq, idxaldan yüksək asılılıq varsa burada yerli istehsal məhsullarının ixrac həcmi və idxal həcminə baxılmalıdır. Azərbaycanda dənlilər üzrə özünütəminetmə səviyyəsinin 2010-cu ildə 56.5%, 2023-cü ildə 70.5%, paxlalılar üzrə 65.8% və 62.8% olması onu göstərir ki, bu məhsullarda idxaldan asılılığın yüksək olması yerli istehsal həcminin aşağı olmasına daha çox bağlıdır. 2010-cu illə müqayisədə dənlilər və dənli paxlalıların istehsal həcmi 62.2% artdığı halda idxalı 11.3% azalmışdır. Müqayisə olunan illərdə ixracda nisbi olaraq yüksək artım olsa da, mütləq kəmiyyət ümumi istehsala və idxala nisbətən olduqca kiçik olmuşdur [10].

Kartof məhsulu üzrə özünütəminetmə səviyyəsi əsasən 80%-90% aralığında dəyişməklə, 2010-cu ildə 100.5% olmuşdur. 2010-cu illə müqayisədə 2023-cü ildə istehsal həcmi 5.9%, idxal həcmi 187.2%, ixrac həcmi 2.2% artmışdır. 2023-cü ildə idxalın həcminin ixrac həcmini 2.6 dəfədən çox üstələməsi yerli istehsal həcminin kartofa olan daxili bazar tələbindən aşağı olmasını, ixracın məhdudlaşdırılmasının yetərli olmayacağını təsdiq edir. Digər tərəfdən idxal həcminin bu qədər yüksək olduğu, yerli istehsalın daxili bazar üçün yetərli olmadığı halda ixracın bu həcmdə olmasının iqtisadi səbəbləri diqqət mərkəzində saxlanılmalıdır.

Bütün növ tərəvəz, bostan məhsulları, meyvə və giləmeyvələrlə özünütəminetmə səviyyəsi əsasən 100%-dən yüksək olmuşdur. Bostan məhsulları üzrə idxal və ixrac göstəriciləri aşağı olmaqla, istehsal həcmi 2010-cu illə müqayisədə 2023-cü ildə 1% azalmışdır. Bütün növ tərəvəzlərin müvafiq müqayisədə istehsal həcmi 53.4%, idxal həcmi 31.1%, ixrac həcmi 222.3% artmışdır. Lakin diqqətdə saxlanılmalı məqamlardan biri özünütəminetmə səviyyəsinin yüksək olduğu bu

cür məhsullardan daha səmərəli istifadə etməklə qida və ərzaq məhsulları üzrə emal sənayesinin inkişaf etdirilməsidir. Azərbaycanda 2018-ci ildən etibarən tərəvəz şirələrinin istehsalında bütün növ tərəvəz ehtiyatlarından istifadənin çox kəskin şəkildə azalması həmin növ məhsullar üzrə istehsal imkanlarının istifadəsiz qalması ilə yanaşı, idxaldan asılılığın yaranmasına, daxili bazarda tələb formalaşdıra bilməyən məhsulların aşağı əlavə dəyərlə ixraca daha çox yönəldilməsinə, emal sənayesinin yaradacağı əlavə məşğulluq imkanlarının itirilməsinə səbəb olacaqdır. 2010-cu illə müqayisədə 2023-cü ildə xüsusilə tərəvəz konservlərinin istehsalı hesabına qida məhsullarının istehsalında bütün növ tərəvəzlərdən istifadə səviyyəsi 18% artsa da, mütləq kəmiyyət və nisbi ölçüdə ixrac və idxal artımı daha yüksək olmuşdur.

Meyvə və giləmeyvələr bitkiçilik məhsulları arasında ən yüksək özünütəminetmə səviyyəsi olan məhsul bölməsi olmaqla, idxaldan asılılıq səviyyəsinin bostan məhsulları, bütün növ tərəvəzlərlə müqayisədə yüksək olmasının səbəblərinə məhsul çeşidliliyinin çox olmasını, təbii iqlim amilinə görə yerli istehsalı mövcud olmayan və ya qiymət fərqinə görə yerli məhsullardan əlverişli şərtlərlə məhsulların idxal həcminin artması səbəblərdən biri kimi göstərilə bilər. Digər tərəfdən ixrac həcmində yerli istehsalla müqayisədə əhəmiyyətli dərəcədə artımın olmasını da qeyd etmək lazımdır. Belə ki, 2010-cu illə müqayisədə 2023-cü ildə Azərbaycanda meyvə və giləmeyvələrin istehsalı 72.9%, idxalı 12.4%, ixracı 144.2% artmışdır. Müsbət məqam kimi, meyvə və giləmeyvələrin istehsalında və istifadəsində artım göstəricisinin olmasının, o cümlədən qida məhsullarının istehsalında istifadəsinin artımını qeyd etmək olar. Həmçinin ixrac həcminin idxal həcmini bir neçə dəfə üstələməsi hələ də bu məhsulların kifayət qədər emal sənayesində istifadə potensialının olduğunu göstərir.

Heyvandarlıq məhsulları üzrə bəzi illərdə yumurta istisna olmaqla bütün məhsullarda özünütəminetmə səviyyəsi 100%-dən aşağı olmuşdur. Bu özünü idxaldan asılılıq göstəricisində də əks etdirmişdir (Cədvəl 2).

2023-cü ildə Azərbaycanda əhalinin ət və ət məhsulları istehlakının əsas hissəsini ardıcıllıqla, mal əti, quş əti, qoyun və keçi ətinin istifadəsi təşkil etmişdir. Yerli istehsal həcmində də bu ardıcıllıq mövcud olmuşdur. Hər üç məhsul bölməsində 2010-cu illə müqayisədə həm istehsal, həm də idxal həcmində artım qeydə alınmışdır. 2010-cu illə müqayisədə 2023-cü ildə idxalda artım qoyun və keçi əti və ət məhsullarında 24.7 dəfə, mal əti və ət məhsullarında 3.1 dəfə, quş əti və ət məhsullarında isə 1.2 dəfə olmuşdur. 2023-cü ildə idxaldan asılılıq quş əti və ət məhsullarında 18.8%, mal əti və ət məhsullarında 11.6%, qoyun və keçi əti və ət məhsullarında 5.1% olmuşdur.

Ət məhsullarından ən aşağı özünütəminetmə səviyyəsi donuz əti və ət məhsullarında olmasının əsas səbəbi yerli istehsalın aşağı səviyyədə qalmasına baxmayaraq, 2010-cu illə müqayisədə 2023-cü ildə idxal həcminin 3 dəfədən çox artması, istehsal həcminin isə 38.5% azalmasıdır. Bunu nəzərə alaraq donuz ətinin istehsalının ən azı daxili bazar tələbatını qarşılamaqla idxaldan asılılığı aşağı salacaq səviyyədə artırılması təmin oluna bilər.

Balıq və balıq məhsulları ilə özünütəminetmə səviyyəsinin aşağı, idxaldan asılılığın yüksək olması ilk növbədə təbii balıq məhsulları ilə zəngin su ehtiyatlarına kifayət qədər malik olmamasından qaynaqlansa da, yetişdirmə balıqçılığı təsərrüfatlarının artırılması və inkişafı hesabına bu göstəricilərin yaxşılaşdırılması imkanları vardır.

Süd və süd məhsullarında 2010-cü illə müqayisədə 2023-cü ildə istehsalın 48.7% artması idxaldan asılılıq səviyyəsinin azalmasında əsas səbəblərdən olmaqla, hələ də kifayət qədər yüksək həcmdə məhsul idxalının olduğunu qeyd etmək lazımdır. Yumurta istehsalında isə bu artım 85.6% olmuşdur ki, nəticədə idxaldan asılılığın daha da aşağı salınmasına və ixracın artırılmasına nail olunmuşdur.

Ərzaq məhsulları bazarında bitkiçilik və heyvandarlıq məhsullarının istifadəsi ilə yanaşı, əhalinin getdikcə artan sənaye emalından keçmiş məhsul istehlakı, ölkədə kənd təsərrüfatı sahələri ilə inteqrasiya şəraitində ərzaq və qida məhsulları üzrə emal sənayesi müəssisələrinin xammal bazasına, ərazi və regional xüsusiyyətlərə əsaslanmaqla müxtəlif miqyaslarda təşkilinin əhəmiyyətini daha da artırmışdır.

Cədvəl 3.

Azərbaycanda sənaye emalından keçmiş məhsullar üzrə idxaldan asılılıq səviyyəsi, faizlə

Məhsul növləri	İllər üzrə						
	2010	2015	2019	2020	2021	2022	2023
Təmizlənmiş düyü	86.9	90.5	81.4	85.8	82.3	82.4	79.6
Bütün növ un	5.3	5.1	4.6	5	5.3	7.2	10.4
Bütün növ yarma	88.7	82.1	75.7	65.6	54.9	95.4	56.2
Bitki yağları	91	73.2	73.2	75.3	69.2	71.8	72
Marqarin	7.8	2.4	6.5	6.7	4.4	3.2	3.4
Kərə yağı	49.9	31.5	35	38.2	33.8	41.4	38.2
Makaron məmulatları	50.3	52.1	80.8	64.5	57	41.3	42.6
Meyvə və tərəvəz şirələri	48.8	22.8	13.1	8.7	9	5.9	7.6
Meyvə və tərəvəz konservləri	14.5	14.4	13.7	13.3	14.5	16	16.6
Qatıq, qaymaq, yogurt və s. süd məhsulları	6.2	6.1	5.7	5.8	6.9	6.6	5.7

Mənbə: ARDSK-nın məlumatları əsasında tərtib olunmuşdur.

Sənaye emalından keçmiş məhsullardan yalnız meyvə və tərəvəz şirələrində özünütəminetmə səviyyəsi bütün illərdə 100%-dən yüksək olmuşdur. Un, tərkibində sirop, yumurta, pendir və ya meyvə cemi olmayan təzə çörək istehsalında isə 90%-dən yüksək özünütəminetmə səviyyəsi qeydə alınmışdır. Yarmalarda özünütəminetmə səviyyəsi aşağı olmaqla, Cədvəl 3-ə baxdıqda idxaldan asılılıq göstəricisinin yüksək olduğu görünür. 2010-cu illə müqayisədə 2023-cü ildə un istehsalı 0.5% artdığı halda, idxalı 104.3% artmışdır. Təmizlənmiş düyünün istehsal və idxal həcmində artım olsa da, idxalın həcmi istehsal həcmindən bir neçə dəfə yüksək olduğundan bu sahədə asılılıq yüksək həddə davam etməkdədir. Azərbaycanın qeyri neft-qaz sektorunun ixracatında meyvə və tərəvəz istehsalının önəmli paya malik olmasını, özünütəminetmə səviyyəsinin yüksək olmasını nəzərə alaraq, meyvə və tərəvəz konservləri ilə özünütəminetmə və idxaldan asılılıq səviyyəsini qənaətbəxş hesab etmək olmaz. Meyvə və tərəvəz konservlərinin istehsalında müvafiq müqayisədə istehsal 73%, idxal 105.3%, ixrac 54.8% artmışdır. Azərbaycanın demək olar ki, bütün kənd ərazilərində meyvə və tərəvəz istehsalı həyata keçirilir və həmin məhsulların istehsalının artırılması potensialı yüksəkdir. Buna uyğun olaraq həmin məhsulların emalı üzrə hər bir iqtisadi rayonda müəssisələrin yaradılması imkanı vardır. Bu həmin ərazilərdə istehsal olunmuş meyvə və tərəvəz məhsulları üçün yerli tələbi artırmaqla istehsalı stimullaşdıracaq, məhsulların daha uzaq məsafələrə daşınması zamanı yaranacaq əlavə xərclərə qənaət etməyə, yerli əhalinin məşğulluq və gəlir səviyyəsinin artmasına imkan verəcək, kənd təsərrüfatı və sənaye arasındakı sahələrarası əlaqələri, əməkdaşlığı inkişaf etdirəcək, meyvə və tərəvəz konservlərinin təklifini artıraraq məhsul bolluğu, alıcılar üçün əlverişli qiymətlərin formalaşmasına gətirəcək, idxaldan asılılığı azaldacaq, daha yüksək əlavə dəyər və aşağı risklərlə ixracın artmasına imkan verəcəkdir. Təbii ki, bütün bunlar həmin müəssisələrin müasir tələblərə uyğun qurulmasından, keyfiyyət standartlarının qorunmasından, bazar mühitinə uyğunlaşmaqdan, xammal bazasının təşkili xüsusiyyətlərindən də asılıdır. Bununla belə, istehsal potensialı yüksək iqtisadi rayonlarda bu cür müəssisələrin qurulmasına dövlət dəstəyinin maliyyə, infrastruktur, təşkilati, informasiya və s. istiqamətlərdə göstərilməsi kənd təsərrüfatında istehsal qarşısında dayanan bir çox problemlərin sahələrarası əlaqələr hesabına həllinə imkan verəcəkdir. Bundan başqa, istehsalın bu kənd təsərrüfatı rayonlarında yerləşdirilməsinin xammal bazasına yaxınlıq, ucuz işçi qüvvəsi ilə təmin olunma kimi təbii üstünlükləri də istehsalın rentabelliliyinə təsir göstərəcəkdir. Ərzaq məhsulları üzrə emal sənayesi müəssisələrinin mövcudluğu həm də ərzaq məhsullarına olan tələbin strukturuna təsir göstərməklə bitkiçilik və heyvandarlıq sahələrində ərazi üzrə ixtisaslaşmanı sürətləndirəcəkdir.

Bitki yağlarının istehsalında 2014-2018 və 2019-2023-cü illərdə davamlı olaraq azalma müşahidə edilmişdir [10] və 2010-cu illə müqayisədə 2023-cü ildə istehsalda 36.6% azalma, idxalda 19.7% artım, ixracda 5 dəfədən çox azalma olmuşdur [10], [11]. Bitki yağlarının istehsalının azalması günəbaxan, qarğıdalı, zeytun kimi kənd təsərrüfatı məhsullarına tələbin azalmasına gətirib çıxara bilər ki, bu da həmin istiqamətlər üzrə təkrar istehsal prosesinin pozulmasına səbəb olacaqdır. Yağ məhsulları üzrə keyfiyyət baxımından bitki və kərə yağları ilə müqayisədə aşağı qiymətləndirilən marqarinin əhalinin şəxsi istehlak fondunda 2010-cu illə müqayisədə 2023-cü ildə xüsusi çəkisini 2.2 dəfədən çox artırması, bitki yağlarının istehsalının azalması, kərə yağı istehsalında artımın zəif olması ilə yanaşı, qiymət baxımından istehlakçılar üçün daha əlçatan olmasından da qaynaqlana bilər. Ərzaq məhsullarının istehlakında real gəlir səviyyəsinin azalması qiymətə həssaslığı artıran amil olduğundan, əvəzləmə effektinin təsiri ilə ucuz hesab olunan lakin aşağı keyfiyyətli məhsullara marağın artması yerli istehsaldan həmin məhsulların ixraca yönəlməsini də zəiflədə bilər.

Qiymətə həssaslığın artması yerli istehsal məhsullarının aşağı qiymətlə istehsal olunan məhsullara qarşı daxili bazarda rəqabətdə mövqeyini zəiflətməklə, istehsalın azalmasına səbəb ola bilər. Xarici ticarətdə bunu nəzərə alaraq gömrük rüsumlarının tətbiqi müəyyən qədər yerli istehsalın qorunmasına şərait yarada bilər. Azərbaycanda gömrük rüsumlarının tətbiqində yerli istehsalın artırılmasına xidmət edəcək istehsal vasitələri, bitkiçilik və heyvandarlıqda toxumluq və damazlıq istiqamətli məhsulların və istehlak təyinatlı ərzaq və qida məhsulları üzrə rüsumların tətbiqində fərqliliklər [12] əsasən yerli istehsal məhsulunun qiymət rəqabətində dəstəklənməsinə xidmət edir.

Nəticə

Qiymət amili yerli ərzaq istehsalının inkişafında əhəmiyyətli olmaqla, bazar tələbinin qarşılanma imkanlarına uyğun fərqli yanaşma tətbiq olunmalıdır. Belə ki, yerli istehsalın bazar tələbini qarşılamasında ciddi çatışmazlıqlar olduqda idxalda yüksək rüsumlar və məhdudiyyətlərin tətbiqi istehlakın ciddi həcmdə azalmasına, rifah səviyyəsinin aşağı düşməsinə səbəb olacaqdır. Yerli istehsal potensialının çox məhdud olduğu meyvə, tərəvəz və s. kimi məhsullarda vergi, rüsum, kvotaların tətbiqində hərtərəfəli əsaslandırılmış yanaşma olmalıdır. Belə ki, bu tip məhsullar yerli istehsal məhsulları ilə əvəzləyici əmtəə xarakteri daşıdığı halda qiymətinin əlverişli olması, alıcılarda həmin məhsullara tələbi artıra, yerli istehsal məhsullarına tələbi azalda bilər. Digər tərəfdən idxaldan asılılığın yüksək, çatışmazlığı olan məhsulların qiymət artımı istehsalçılar üçün stimullaşdırıcı təsir yarada bilər. Nəticədə artan istehsal həcmi bazar təklifini artıra, daha yüksək istehsal həcmi və aşağı qiymətlərdə bazar tarazlığı formalaşa bilər.

Təhlil olunan göstəricilərə əsasən, kənd təsərrüfatı istehsalının özünütəminetmə səviyyəsi aşağı olan sahələrdə, həmin məhsulların emalı sahələrində də idxaldan asılılığı ciddi şəkildə azaltmaq mümkün olmamışdır. Buna baxmayaraq bu istiqamətdə də kifayət qədər istehsal imkanları mövcuddur. Misal olaraq un istehsalı əsasən idxal xammalı hesabına həyata keçirilsə də, idxaldan asılılıq xeyli azaldılmışdır. Lakin istehsalın sahələrarası əlaqələrinin daha yüksək səviyyədə tamamlanması, istehsal mərhələsinə aid əlavə dəyərlərin mümkün maksimal həddinin ölkədə formalaşdırılması üçün undan hazırlanan qida sənayesi və müxtəlif ərzaq məhsullarının yerli istehsalının genişləndirilməsi vacibdir.

Ölkədə ərzaq məhsulları üzrə idxaldan asılılığın əsas problemlərindən biri kənd təsərrüfatı istehsalının əksər sahələrdə yerli istehsal potensialına uyğun gəlməməsidir. İdxaldan asılılığın aşağı olduğu və özünütəminetmə səviyyəsinin yüksək olduğu hallarda isə, həmin məhsulların emalı məhsulları ilə özünütəminetmə səviyyəsi bəzi məhsullar istisna olmaqla aşağıdır.

Bütün bu problemləri strukturlaşdırmaqla və tənzimləmədə istifadə olunan mexanizmlərin təkmilliyinin davamlılığı, tədbirlərin adekvatlığı və opertiv, genişmiqyaslı icrası ilə həll etmək mümkündür. Yerli istehsalın inkişafında infrastruktur, istehsal, bazar problemləri özünün bütün tərkib elementləri ilə tam şəkildə həllini tapmadıqca, ərzaq bazarında yerli istehsal potensialından maksimum fayda əldə etmək, idxaldan asılılığı arzuolunan həddə endirmək mümkün deyildir.

Dövlətin kənd təsərrüfatı və sənaye emalından keçmiş ərzaq məhsullarının istehsalı üzrə nəqliyyat, informasiya, suvarma, baytarlıq, toxumçuluq, elmi-tədqiqat fəaliyyətlərinin inkişaf etdirilməsi, bazar mühitinin təkmilləşdirilməsi, istehsal texnologiyalarının inkişafı, ərzaq məhsulları istehlakçılarının real gəlir səviyyəsində və məşğulluğunda kəskin azalmaların qarşısının alınması, istehsal sahələrində təşkilati-idarəetmə sisteminin, o cümlədən, ərazi üzrə istehsal, xidmət, satış kooperativlərinin inkişaf etdirilməsi, əhali məskunluğunda kəskin fərqlərin qarşısının alınması, maliyyə alətlərindən istifadənin operativliyi və səmərəliliyinə nəzarətin gücləndirilməsi və s. kimi tədbirlər problemin həllində əhəmiyyətli ola bilər.

ƏDƏBİYYAT

1. A.Ş. Şəkərəliyev. Dövlətin iqtisadi siyasəti: reallıqlar və perspektivlər. Monoqrafiya. Bakı: “İqtisad Universiteti”, 2009. 414 s.
2. V.H. Abbasov. Aqrar sahədə iqtisadi tənzimləmənin aktual problemləri. Monoqrafiya. Bakı – 2012, 424 s. s.386-391
3. https://aak.gov.az/upload/dissertasion/_qtisad_elml_ri/PdfAvto__Nicad_m_(1).pdf
4. https://aak.gov.az/upload/dissertasion/iqt/iqt_n_arc_12_07_18.pdf
5. https://customs.gov.az/uploads/payment/2/92f2e5a12d84eca0cd2d68ad73b30c7b.pdf?v=1669717151
6. https://dergipark.org.tr/tr/download/article-file/559828
7. https://faolex.fao.org/docs/pdf/aze227380.pdf
8. https://static.president.az/upload/Files/2019/04/29/p72rexr58_AQTA_D_vl_t_Proqram_.pd
9. https://www.am.org.az/wp-content/uploads/1.pdf
10. https://www.stat.gov.az/source/food_balances/
11. https://www.stat.gov.az/source/trade/
12. https://www.taxes.gov.az/az/post/283

Вахид Гаджибек оглы Аббасов
д.э.н., профессор, Бакинский Государственный Университет, кафедра экономики
Электронная почта: vahid.abbasov.@mail.ru

Тахмина Гамлет кызы Сафарли
докторант Бакинского Государственного Университета
Электронная почта: tahminabdu@gmail.com

Регулирование импортозависимости на рынке продовольствия

Резюме

Целью исследования является анализ современной ситуации в сфере местного производства, импорта и экспорта продовольствия, а также взаимодействия между ними с учетом экономических подходов к регулированию зависимости от импорта продовольствия и подготовка предложений по их совершенствованию.

Методология исследования - при подготовке статьи использовались национальные программы развития, научно-теоретические подходы к регулированию продовольственного рынка, общеисследовательские и частные методы исследования, такие как статистический анализ, обобщение, сравнение, логическое рассуждение.

Практическая значимость исследования заключается в подготовке предложений и рекомендаций по повышению уровня самообеспеченности Азербайджана большинством продуктов питания, снижению высокой зависимости от импорта, повышению эффективности переработки экспортной продукции, совершенствованию регуляторной политики для удовлетворения спроса внутреннего рынка за счет местного производства.

Результаты исследования охватывают вопросы увеличения инвестиций в целях вывода производства продовольствия на уровень, обеспечивающий спрос внутреннего рынка, государственной поддержки развития производственной, перерабатывающей и рыночной инфраструктуры, развития всех смежных направлений на продовольственном рынке — от производства, поставок, переработки и доставки сельскохозяйственной продукции конечному потребителю.

Оригинальность и научная новизна исследования - результаты исследования являются оригинальными в части последовательного и корректного использования теоретических источников, статистических данных и аналитических материалов, научную новизну представляют соображения по изучению и устранению основных причин импортозависимости на продовольственном рынке, самообеспечения продукцией растениеводства, животноводства и промышленно переработанными продуктами питания, определения взаимосвязи импортозависимости, определения экономических механизмов, влияющих на эффективное использование производственного потенциала.

Ключевые слова: продовольственный рынок, импортозависимость, производство продуктов питания, импорт, экспорт.

Vahid Hajibey oglu Abbasov
doctor of Economics, Professor,
Baku State University, Department of Economics
E-mail: vahid.abbasov.@mail.ru

Tahmina Hamlet gizi Safarli
doctoral student of Baku State University
E-mail: tahminabdu@gmail.com

Regulatıon of ımport dependence ın the food market

Summary

The purpose of the study is to analyze the current situation in the sphere of local production, import and export of food, as well as the interaction between them, taking into account economic approaches to regulating dependence on food imports and preparing proposals for their improvement.

Research methodology - in preparing the article, national development programs, scientific and theoretical approaches to regulating the food market, general research and specific research methods such as statistical analysis, generalization, comparison, logical reasoning were used.

The practical significance of the study lies in the preparation of proposals and recommendations for increasing the level of self-sufficiency of Azerbaijan in most food products, reducing high dependence on imports, increasing the efficiency of processing export products, improving regulatory policies to meet domestic market demand through local production.

The results of the study cover the issues of increasing investment in order to bring food production to a level that meets domestic market demand, state support for the development of production, processing and market infrastructure, the development of all related areas in the food market - from production, supply, processing and delivery of agricultural products to the end consumer.

Originality and scientific novelty of the study - the results of the study are original in terms of consistent and correct use of theoretical sources, statistical data and analytical materials, scientific novelty is represented by considerations on the study and elimination of the main causes of import dependence in the food market, self-sufficiency in crop production, livestock and industrially processed food products, determining the relationship of import dependence, determining economic mechanisms that affect the efficient use of production potential.

Key words: food market, import dependence, food production, import, export.